Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 202 (1330) 2 noyabr - 3 noyabr 2016-cı il

# DAHA BÖYÜK UĞURLARA İDDİALI ZAQATALA...

***Bütün fəsilləri sevgi ilə yaşayan məkan***

**Gəzib görənlər bilir. Zaqatala nadir məkanlardan biridir ki, burada ilin bütün fəsilləri üçün qapılar daim açıqdır. Yəni burada hər bir fəslin, eləcə obrazlı desək, "sevimli qonaq" statusu var. Daha "bu qış nədən bu qədər uzun çəkdi" və ya "bu yay nə isti keçir belə..." kimi nigarançılıq, narahatçılıq bildirən söz-söhbət eşitməzsən. Abad qəsəbə və kəndlər, gözəl Zaqatala şəhəri həmişə bütün fəsillərin gəlişinə hazır olur: vaxt-bivaxt!**

İndi payızdır. Bu yerlərdə təbiət sonbahar ömrünü daha çox yağmurlu, bozumtul günlərlə yaşasa da, insanların əhval-ruhiyyəsi normaldır. Hətta hərdən o qarşı dağların zirvələri yüngülcə "ağ örpəyə" bürünsə də. Bir də gördün, o zirvələrin üzərindən günəş gülümsəyir, aşağıda meşələrin, bağ-bağatların yarpaqları al-əlvan işıqlarla oynaşır, buludlar ağırlığını, köçünü uzaqlara çəkib aparır...

Buralarda sel-su qorxusu da yoxdur. Şəhərin, qəsəbə və kəndlərin payız-qış mövsümünə hazırlığı rayon rəhbərliyinin müntəzəm nəzarətindədir. Bütün infrastrukturlar əvvəlcədən yüksək hazırlıq səviyyəsinə çatdırılır. Nöqsanlar da olur. Ancaq neçə illərin ənənəsi - rayon rəhbərliyinin bütün məsələlərə vaxtında müdaxiləsi və prosesləri nəzarətdə saxlaması bu nöqsanları da aradan qaldırır, baş verə biləsi narahatlıq minimuma endirilir. Elə bir gün ola bilməz ki, başçı Mübariz Əhmədzadə və onun müavinləri kəndlərdə və şəhərin müxtəlif yerlərində xidmət təşkilatlarının, eləcə digər strukturların fəaliyyətləri ilə maraqlanmasın. Təsərrüfat məsələləri, fermerlərin qayğıları və başqa vacib məsələlər də müntəzəmliklə diqqət mərkəzində olur. Zaqatala Rayon İcra Hakimiyyətində idarəetmənin nümunəvi üslubu çoxdan formalaşaraq effektiv nəticələrə aparmaqdadır.



***Rayon rəhbərliyinin nikbinliyi reallıqlara əsaslanır***

Başlanğıcdakı zarisovkadan sonra təbii ki, söhbət 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları istiqamətində davam edəcəkdir. Zaqatalada keçirilən ümumrayon yığıncağında başçı Mübariz Əhmədzadə bu barədə geniş məruzə ilə çıxış etmişdir. M.Əhmədzadə demişdir:

**"...Rayonun gələcək inkişafı ilə bağlı konkret proqramlar var. Xüsusilə indi infrastruktur layihələri icra edilir. Kənd yollarının tikintisinə vəsait ayrılır. Sosial obyektlər tikilir. Ölkəmizin uğurlu inkişafı regionların inkişafından böyük dərəcədə asılıdır".**

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

- Oktyabrın 7-də Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2016-cı ilin dünya iqtisadiyyatı üçün çox ağır il olduğunu, bütün dünyanın siyasi və hərbi böhrandan əziyyət çəkdiyini, Yaxın Şərqdə vəziyyətin kritik həddə çatdığını, Avropada miqrant böhranının dərinləşdiyini, radikal qüvvələrin fəallaşdığını vurğulayaraq Azərbaycanda bütövlükdə nəticələrin yaxşı olduğunu, ölkəmizin inkişaf yolu ilə getdiyini, ictimai-siyasi vəziyyətin sabit qaldığını, ölkə qarşısında duran vəzifələrin həll olunduğunu bildirərək demişdir: - "....Bizim üstünlüyümüz ondan ibarətdir ki, həmişə öz yolumuzla gedirik, öz siyasətimizi aparırıq, heç kimin sözü ilə oturub-durmuruq. Ona görə bu gün Azərbaycanda inkişaf var, sabitlik var".

Ölkəmizin həyatında baş verən mühüm hadisələrdən danışarkən Prezident İlham Əliyev ötən ay Azərbaycan konstitusiyasına edilən əlavə və dəyişikliklərlə bağlı keçirilən referenduma da münasibət bildirərək referendumun demokratik, ədalətli, tam şəffaf şəkildə keçirildiyini, xalqın mütləq əksəriyyətinin təklif olunan dəyişikliklərə dəstək ifadə etdiyini bildirmişdir.

Ölkəmizdə sənayenin 0,2 faiz, qeyri neft sektorunun 3,6 faiz və kənd təsərrüfatının isə 2,4 faiz artdığını deyən Prezident İlham Əliyev kənd təsərrüfatı sahəsində aparılan işlərin yaxın gələcəkdə daha böyük uğurların əldə edilməsinə imkan verəcəyini bildirdi. Sosial layihələrin icra edildiyini, təhsil və səhiyyə obyektlərinin tikildiyini, yol və içməli su layihələrinin həyata keçirildiyini, son 9 ayda 121 mini daimi olmaqla 154 min iş yerinin yaradıldığını, 36 min iş yerinin isə bağlandığını deyən dövlətimizin başçısı böhranlı il üçün bunun xüsusi göstərici olduğunu qeyd etdi.

Dövlət Başçısı, ölkədə bir sıra islahatların aparıldığını, onların artıq nəticə verdiyini və bu islahatların beynəlxalq qurumlar, o cümlədən dünyanın bir nömrəli iqtisadi forumu olan Davos Dünya İqtisadi Forumu tərəfindən Azərbaycan iqtisadiyyatını rəqabət qabiliyyətliliyinə görə 37-ci yerdə qərarlaşdırıldığını bildirdi.

Gələn il dövlət büdcəsinin sosial yönümlü olmasının vacibliyini, investisiya yönümlü layihələrin icrasının diqqət mərkəzində saxlanılmasının zəruriliyini, dövlət investisiya proqramı hazırlanarkən özəl sektorun investisiyalarını daha böyük həcmdə cəlb etməli olduğunu qeyd edən dövlətimizin başçısı, ölkədə süni qiymət artımının qarşısının alınması, idxaldan asılılığın minimuma endirilməsi ilə bağlı tapşırıqlarını verdi və bildirdi ki, ölkədə sənayenin inkişafına və qeyri neft sektorunun tərəqqisinə mühüm töhfə ola biləcək sənaye parklarının yaradılması istiqamətində tədbirlər davam etdirilməlidir.



Prezident İlham Əliyev ölkədə pambıqçılığın, baramaçılığın, tütünçülüyün, çayçılığın, fındıqçılığın və heyvandarlığın inkişafı ilə bağlı tapşırıqlarını verərkən vurğuladı ki, ölkəmizə valyuta gətirəcək kənd təsərrüfatı məhsullarının istehsalı genişləndirilməli, meleorasiya tədbirləri gücləndirilməsi, sahibkarlara güzəştli kreditlərin verilməsi, ailə bizneslərinin inkişaf etdirilməsi diqqətdə saxlanılmalıdır.

***Dövlət Proqramının icrasında uğurlu nəticələr***

Rayonumuzda da 2016-cı ilin doqquz ayında iqtisadiyyatın dinamik inkişafına nail olunmuş, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası istiqamətində işlər davam etdirilərək 200 milyon 196 min manat dəyərində məhsul buraxılışına nail olunmuş və xidmətlər göstərilmişdir. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 113 faiz çoxdur.

**Məhsul buraxılışı ötən ilin müvafiq dövrünə nisbətən sənayedə 2,5 dəfə, rabitədə 118 faiz, ticarətdə 101 faiz, nəqliyyatda 100 faiz, pərakəndə əmtəə dövriyyəsi 110 faiz, pullu xidmətlərin həcmi 111 faiz olmuş, 1790-ı daimi olmaqla 3112 yeni iş yeri açılmışdır.**

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ